*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  9 noyabr 2018-ci il  № 87 (2303)  Qiyməti 25 qəpik


*9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür*

# Bayrağımız - qürurumuz

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək.*



Torpaq - Vətən deməkdir, Vətən - dövlətdi, dövlətin rəmzi - bayraqdır.

Bayraq dövlətin və xalqın kimliyinin, düşüncə tərzinin və mənəvi dünyasının görünən ən şəffaf, ən işıqlı meyarıdır.

Dövlət bayrağımız suverenliyimizin rəmzidir.

Özünütəsdiq simvolu olan bayraq qürur və güvənc yeri sayılır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyini nümayiş etdirir.

Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İmperiya onu 1920-ci ildə süquta uğratdı. Dövlət ilhaq edildi, dövlətçilik ideyaları, mübarizə əzmi yaşadı, yaşadıldı. Dövlət bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən sessiyada Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Nəticədə 1991-ci il fevralın 5-də bayraq Azərbaycan Respublikasının Ali Soveti tərəfindən ikinci dəfə dövlət rəmzi kimi təsdiq edildi.

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra üçrəngli bayrağımız ümumxalq referendumu ilə qəbul edilən Konstitusiyada da öz əksini tapdı.

Azərbaycan bir çox nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının tamhüquqlu üzvüdür. Dövlət bayrağımız Avropanın mərkəzində dalğalanmağa, varlığımızı, gücümüzü bütün dünyaya tanıtmağa başladı. Ulu öndər Heydər Əliyev Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar keçirilən mərasimdəki çıxışında bayrağımızın çox böyük önəm daşıdığını bir daha vurğuladı: "Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası Sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur".

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanda siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideyalara bağlılığı həm də üçrəngli bayrağımıza münasibətdə açıq-aydın görünür. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanunun imzalanması da bu yüksək ehtiramın ifadəsidir.

Prezident İlham Əliyevin 17 noyabr 2009-cu ildə imzaladığı Sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr (1918-ci il) tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi təsis edildi. 2010-cu ildən etibarən noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur. 2010-cu il sentyabrın 1-də Bakıda dünyanın ən uca bayraqlarından birinin dalğalandığı Dövlət Bayrağı Meydanının təntənəli açılışı Ali Baş Komandanın bir daha dövlət rəmzlərimizə sevgisinin bariz nümunəsidir. Dövlətimizin başçısının həmin mərasimdə səslənən tarixi nitqində deyilir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada... dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına! Yaşasın, Azərbaycan!"

Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün müstəqil Azərbaycan Respublikasının üçrəngli Dövlət bayrağı fəxr, fəxarət mənbəyidir.

Bakıda, Dövlət Bayrağı Meydanında Azərbaycanın 100 yaşlı üçrəngli bayrağı dalğalanır; ən ucalıqda, dünya miqyasında bənzərsiz ucalıqda. Səkkizbucaqlı, ulduzlu hilalımız 20 ildən çoxdur ən mötəbər beynəlxalq qurumların qarşısında bütün dövlətlərin bayraqları ilə bir sıradadır. Bayrağımızın yaranmasının və ilk dəfə dalğalanmasının 100-cü payızıdır. Millətimiz 100 il öncə başı üzərinə qaldırdığı üçrəngli bayrağının bir daha enməməsi üçün ağır sınaqlarla üzləşdi - qalib gəldi. Bu qələbə işığın qaranlıqları əritməsi qələbəsidi. Mübarizlər - ömrünü bu mübarizəyə həsr edənlər millətin millət olması üçün yaşamaq hüququndan keçdi.

Hər vətəndaşın mənəvi dünyası Dövlət bayrağıyla bağlıdır. Bu gün əzəmətlə dalğalanan üçrəngli bayrağımız qürur və varlığımızın təcəssümüdür.

Azərbaycanın hər bir yerində dalğalanan bayraqlar sanki durna qatarı kimi sıralanaraq Qarabağa, Şuşaya, işğal edilən digər torpaqlara sarı qanadlanır, bizi Vətən uğrunda müqəddəs döyüşə haraylayır.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüşüb

*Noyabrın 7-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhə xəttindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə general-polkovnik Zakir Həsənov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb.

Nazir vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir. Münaqişənin tezliklə həlli üçün Ermənistan beynəlxalq hüququn normalarına və prinsiplərinə əməl edərək ordusunun bölmələrini torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarmalıdır.

T.Klaar da öz növbəsində Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edərək bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*8 noyabr 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Sarıcalı, Novruzlu, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri: “Komanda-qərargah hərb oyunlarında əsas diqqət ən yeni, o cümlədən kosmik texnologiyaların tətbiqinə yönəldilsin”

*Noyabrın 8-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları rəhbər heyətə çatdıran Müdafiə naziri bundan irəli gələn məsələlərin qoşunlarda vaxtında və daha keyfiyyətli icrasını təmin etmək barədə konkret göstəriş verib.

Müdafiə naziri keçiriləcək komanda-qərargah hərb oyunlarında əsas diqqətin ən yeni, o cümlədən kosmik texnologiyaların tətbiqi ilə qoşunların fasiləsiz idarəedilməsi və qarşılıqlı fəaliyyətin düzgün təşkilinə yönəldilməsini tapşırıb.

Cəbhə xəttindəki vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin döyüşə hazırlıq səviyyəsinin daha da yüksəldilməsinə, nizam-intizama, döyüş növbətçiliyinin təşkili və aparılmasında sayıqlığın artırılmasına, eləcə də qış mövsümünə hazırlıq işlərinin yekunlaşdırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.



Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü və Konstitusiya Günü münasibətilə şəxsi heyəti təbrik edən Müdafiə naziri bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də andiçmə mərasimlərinin yüksək səviyyədə təşkili ilə bağlı vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda komanda-qərargah hərb oyunları keçiriləcək

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, noyabrın 12-də qoşunların əməliyyat hazırlığı çərçivəsində komanda-qərargah hərb oyunları (KQHO) başlayacaq.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, KQHO-nın əsas məqsədi real şəraitdə keçirilən müxtəlif qoşun əməliyyatlarında idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin səviyyəsinin yoxlanılması və təkmilləşdirilməsidir.

Hərb oyunlarına strateji, əməliyyat, əməliyyat-taktiki və taktiki idarəetmə orqanları, qoşun növ və qismləri, eləcə də xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi nəzərdə tutulur.

KQHO-da ordumuzun sərəncamında olan ən yeni, o cümlədən kosmik texnologiyaların tətbiqi ilə qoşunların fasiləsiz idarəedilməsi, qarşılıqlı fəaliyyət, məlumatların sürətli ötürülməsi və şəraitə uyğun olaraq qərarların dərhal qəbul edilməsi üzrə vərdişlər icra olunacaq.

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi anılıb

Noyabrın 7-də Biləsuvar rayonunda Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsi anılıb.

Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri rayonun Əliabad kəndində Milli Qəhrəmanın evini ziyarət edərək, ailəsi ilə görüşüblər.

Milli Qəhrəmanın atası Ağakərim İbrahimov ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Anım gününün iştirakçıları Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova məxsus müxtəlif şəkillər, haqqında yazılmış kitablar, jurnallar və qəzetlərdən ibarət guşəyə baxıblar.

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən inşa olunacaq Mübariz İbrahimovun xatirə muzeyinin tikiləcəyi əraziyə baxış keçirilib.

**"Azərbaycan Ordusu"**

# "Bir bayraq altında"

## Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində vətənpərvərlik tədbiri keçirilib

*Noyabrın 7-də Azərbaycan Respublikasının Dövlət bayrağının qəbul edilməsinin 100 illiyi münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Bir bayraq altında" adlı vətənpərvərlik tədbiri keçirilib.*



Bakı qarnizonunun birlik, birləşmə və hərbi hissələrinin, qoşun növlərinin, xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyəti əvvəlcə Təlim və Tədris Mərkəzinin həyətində Azərbaycanın tarixi bayraqlarının sərgisi ilə tanış olub. Suraxanı rayonundakı N.Əliyev adına 282 nömrəli tam orta məktəbin müəllimi Gülər Musayevanın təşəbbüsü ilə hazırlanan, üzərində 12 min 62 şəhidimizin adlarının yazıldığı 5 metr uzunluğundakı bayraq da böyük marağa səbəb olub.

Azərbaycan Hərb Tarixi Muzeyinin və Gəncə Qarnizonu Zabitlər Evinin birgə təşkil etdiyi sərgi barədə məlumat verən layihənin rəhbəri, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Azərbaycan bayrağının tarixi haqqında məlumat verib. Bildirib ki, sərgidə erkən orta əsrlər və orta əsrlər Azərbaycan tarixinə, eləcə də xanlıqlar dövrlərinə aid, sovet dövründə milli diviziyalarımıza məxsus bayraqlar nümayiş etdirilir.

Tədbir Azərbaycan Respublikası Dövlət bayrağının, aprel döyüşlərində, eləcə də bu ilin mayında Naxçıvanda keçirilən uğurlu əməliyyatda iştirak etmiş, xüsusi xidmətləri olan hərbi hissələrin hərbi paradlarda nümayiş olunan döyüş bayraqlarının gətirilməsi ilə başlayıb.

Sonra ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin ifasında Dövlət himni səsləndirilib.



Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxışında Azərbaycan dövlətinin və istiqlalımızın müqəddəs rəmzlərindən olan dövlət bayrağının milli kimliyimizin simvolu olduğunu bildirib. O, hər bir azərbaycanlının qürur mənbəyi olan üçrəngli bayrağımızın yaranma tarixindən, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş Dövlət bayrağımızın XX əsrin sonunda yenidən bərpa olunmasından danışıb. İdarə rəisi Azərbaycan bayrağının yenidən qaldırılması üçün canlarını fəda etmiş Vətən övladlarının xatirəsini hörmət və ehtiramla yad edib. Rasim Əliyev xüsusi vurğulayıb ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin sayəsində Azərbaycan bayrağının tezliklə Şuşada, Xankəndidə, Laçında, Kəlbəcərdə və işğal altındakı digər torpaqlarımızda da dalğalanacağı gün uzaqda deyil.

- 2018-ci il - Azərbaycan Xalq Cümhuriyyəti ili çərçivəsində növbəti möhtəşəm tədbirin astanasındayıq. Bu günlər xalqımız Azərbaycan Respublikasının Dövlət bayrağının qəbul edilməsinin 100 illik yubileyini təntənə və sevinclə qeyd edir. Əvvəla bu münasibətlə hər birinizi Müdafiə Nazirliyinin rəhbərliyi adından səmimi qəlbdən təbrik edir və hər birinizə ən xoş, səmimi arzularımı bildirirəm. Gün o gün olsun ki, üçrəngli bayrağımızın işğal altında olan torpaqlarda da dalğalanacağı müqəddəs günün təntənəsini yaşayaq.

Bayraq hər bir Vətən övladı üçün əziz və müqəddəsdir. Məşhur bir türk şeirində deyildiyi kimi, Torpaq uğrunda ölən varsa vətənləşər, bayraq isə üzərindəki qanla bayraqlaşar.

Noyabrın 9-u öz Vətənini,



millətini, dövlətini sevən hər bir soydaşımız üçün əziz və müqəddəs bayramlardan biridir. Həmin gün Dövlət bayrağımız prospekt və küçələrimizi bəzəyir. Paytaxtımızın ən görkəmli yerlərində üçrəngli bayrağımız daha əzəmətlə dalğalanır, hər birimizin köksünü qabarır. Bu gün təkcə Azərbaycanda deyil, dünyanın hər yerində qəlbi Vətən eşqiylə döyünən soydaşlarımız müstəqil Azərbaycanın Dövlət Bayrağı Gününü böyük ehtiramla qeyd edirlər. Bu gün harada azərbaycanlı varsa, orada Azərbaycan var. Azərbaycan olan yerdə isə üçrəngli bayrağımız var.

1991-ci il fevralın 5-də ölkə ictimaiyyətinin tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti Dövlət bayrağı haqqında Qanun qəbul edərək, üçrəngli bayrağa Azərbaycan Respublikasının Dövlət bayrağı statusunu verməyə məcbur olmuşdu.

1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən ölkəmizdə tarixi ənənələrə hörmət və sədaqətin ifadəsi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri, o cümlədən Dövlət bayrağı qəbul edilib.

General-mayor Rasim Əliyev daha sonra dedi: - Ümummilli Liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlar imzalayıb. Bundan sonra hər il noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur.



Bu gün Azərbaycan dövlətinin, eləcə də onun rəmzlərinin keşiyində də hər bir azərbaycanlının sevdiyi qüdrətli Azərbaycan Ordusu dayanıb.

Üçrəngli bayrağımız 2016-cı ilin aprel döyüşlərində cəsur ordumuzun şücaəti ilə işğaldan azad edilən Lələtəpə, Bayraqtəpə zirvələrində və bu ilin may ayında düşməndən azad edilmiş Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır və əminik ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanın üçrəngli bayrağı Dağlıq Qarabağda - Xankəndidə, Şuşada da əzəmətlə dalğalanacaqdır.

Tərtər rayonundan gələn tədbirdə iştirak edən Azərbaycan Ordusunun ilk döyüşçülərindən olan Pənah Məmmədov torpaqlarımız və bayrağımız uğrunda gedən döyüşlərdəki xatirələrini iştirakçılarla bölüşüb.

Mötəbər idman yarışlarında Azərbaycanın Dövlət bayrağını dəfələrlə ucaltmış kunq-fu üzrə 12 dəfə Azərbaycan, ikiqat Avropa, yeddiqat dünya çempionu, dünya kubokunun ikiqat qalibi Fərid Mayılov və uşu-sanda üzrə dünya çempionu Elçin Eminov himnimizin sədaları altında Azərbaycan bayrağının qaldırılmasından duyduqları qürur hissindən danışıblar. Onlar Azərbaycan bayrağının, Vətənimizin onlar üçün hər şeydən üstün olduğunu bildiriblər.

Çıxış edənlər Dövlət bayrağının hər bir vətəndaş üçün qürur mənbəyi olmasından, ona sevginin uşaqlara daha əhatəli aşılanmasından, yeniyetmələrin bayrağa sevgisinin daha dönməzliklə formalaşdırılması zərurətindən danışdılar, qeyd etdilər ki, bu tələblər əsasında böyüyən uşaqlar gələcəkdə əsl vətənpərvər kimi formalaşacaq, Vətənə layiqincə xidmət edəcəklər. Bayrağa sevgi Vətənə, torpağa, dövlətə, millətçiliyə sevgi deməkdir. Gənclərin Vətən sevgisinin əsasında bayraq sevgisi dayanır.

Tədbir respublikanın tanınmış incəsənət ustalarının, bədii qiraətçilərin, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin iştirakı ilə "Bayrağım - varlığım, bəxtiyarlığım" mövzusunda ədəbi-musiqili proqramla davam edib.

**"Azərbaycan Ordusu"**

# “Bayraq yürüşü”ndə minlərlə insan iştirak edib



*Noyabrın 6-da Müdafiə Nazirliyi Təhsil Nazirliyi və Füzuli rayon İcra Hakimiyyəti ilə birgə Horadiz şəhərində Dövlət Bayrağı Günü münasibəti ilə "Bayraq yürüşü" keçirib. Yürüşün keçirilməsində məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissi və milli-mənəvi dəyərlərin aşılanmasıdır.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yürüşdə Təhsil və Müdafiə nazirliklərinin rəhbər şəxsləri, hərbçilər, Qarabağ müharibəsi veteranları, gənclər, müəllim və şagirdlər, QHT və KİV nümayəndələri iştirak ediblər. Yürüş iştirakçıları əvvəlcə Horadiz şəhərində Ulu Öndərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyublar.

Üç mindən çox insanın iştirak etdiyi yürüş Heydər Əliyev parkından Dövlət Bayrağı Meydanına qədər davam edib. Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət himni səsləndirilib.

Təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə çıxış edərək, Azərbaycan dövlətinin və istiqlalının müqəddəs rəmzlərindən olan bayrağın milli kimliyimizin simvolu və bu il 100-cü ildönümü qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olduğunu vurğulayıb. Firudin Qurbanov hər bir azərbaycanlının qürur yeri olan dövlət bayrağının tarixindən söz açıb və Təhsil Nazirliyinin təşəbbüsü ilə ənənəvi olaraq keçirilən "Bayraq yürüşü"nün gənclərin milli dəyərlərə ehtiram, milli ideallara bağlılıq ruhunda tərbiyə olunması baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Nazir müavini varlığımızı və gücümüzü dünyaya tanıdan bayrağımızın işğal altında olan ərazilərimizdə dalğalanacağı günün uzaqda olmadığına və Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında buna nail olunacağına inamını ifadə edib.

Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Dövlət Bayrağı Gününün qeyd olunmasını dövlətçilik tariximizin əlamətdar hadisəsi kimi qiymətləndirib. Cəbhə bölgəsində belə tədbirin keçirilməsinin gənclərdə bayraq sevgisini daha da artıracağını vurğulayıb. Bildirib ki, respublikanın bütün bölgələrində olduğu kimi, Horadiz şəhərində də Bayraq Meydanı inşa edilib. 10 hektar ərazidə salınan Bayraq Meydanında ucaldılan 67 metr hündürlüyündə bayraq dirəyi bütün ətraf ərazilərdən aydın görünür və cəbhə bölgəsində yaşayan füzulililərin qəlbini fərəh, qürur hissi ilə doldurur.



Tədbirdə çıxış edən "N" hərbi hissəsinin zabiti Elşad Əbilov və professor Anar İsgəndərov "Bayraq yürüşü"nün keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirib, üçrəngli bayrağımızın hər zaman yüksəklərdə dalğalanacağına əmin olduqlarını bildiriblər.

Daha sonra əsgərlər döyüş hazırlığı səviyyəsini nümayiş etdirib, məktəblilərin ifasında bayrağa aid mahnı və rəqslər təqdim olunub.

Təhsil nazirinin müavini Firudin Qurbanov səfər çərçivəsində Horadiz şəhər 3 nömrəli tam orta məktəbin şagird və müəllim kollektivi ilə də görüşüb və təhsil ocağına hədiyyələr verilib.

## Azərbaycanla Pakistan arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin yeni müdafiə istehsalı üzrə federal naziri xanım Zubeyda Cəlal Xan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Pakistan arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqdan məmnunluq ifadə olunub, müvafiq birgə layihələrin davam etdirilməsi, hər iki ölkədə keçirilən sərgilərdə iştirakın təmin edilməsi məsələləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə təcrübə mübadiləsi, elmi əməkdaşlıq, qarşılıqlı səfərlərin təşkili, müştərək müəssisələrin yaradılması imkanları da müzakirə edilib.

Zubeyda Cəlal Xan Pakistanın Azərbaycanla bütün sahələrdəki kimi, müdafiə sənayesi sahəsində də əməkdaşlığın daha da gücləndirilməsində maraqlı olduğunu söyləyib. O, Pakistanın Azərbaycan Ordusunu lazımi müdafiə sənayesi məhsulları ilə təchiz etməyə hazır olduqlarını bildirib.

Nazir qarşılıqlı müdafiə sahəsində və hərbi-texniki istiqamətdə əməkdaşlığın perspektivləri, müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları haqqında da söhbət açıb. O, bu il noyabrın 27-dən 30-dək keçiriləcək IDEAS-2018 Pakistan Beynəlxalq Müdafiə Sərgisində Azərbaycandan da nümayəndə heyətinin dəvət edildiyini bildirib.

## Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız

*Üçrəngli bayrağımız suverenliyin və müstəqilliyin rəmzidir. Tarixə nəzər salarkən görürük ki, bayraq hər bir xalq üçün müqəddəs olub. İnsanlar öz dövlətlərinin bayraqlarına həmişə ehtiramla yanaşıblar. Bu mənada ölkəmizdə 9 Noyabr Dövlət Bayrağı Gününün qeyd olunması həm dövlətimiz, həm də xalqımız üçün olduqca əlamətdar bir hadisədir.*



Azərbaycan Hərb Tarixi Muzeyində Dövlət bayrağının qəbul edilməsinin 100 illiyinə həsr olunan "Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız" adlı təntənəli tədbir keçirildi.

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi, Suraxanı rayon N.Əliyev adına 282 saylı tam orta məktəbin müəllim və şagirdləri, şəhid ailələri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açaraq "Üçrəngli bayrağımız müstəqilliyimizin əsas atributu kimi" adlı məruzəsində hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillərin onun dövlətçilik ənənələri ilə yanaşı, zəngin milli-mənəvi irsini də müəyyənləşdirdiyini qeyd etdi. Muzeyin rəisi onu da bildirdi ki, Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də verilib və noyabrın 9-da Nazirlər Şurası tərəfindən Azərbaycan bayrağının göy, qırmızı və yaşıl rənglərdən, mərkəzdə ağ aypara və səkkizguşəli ulduzdan ibarət olması barədə qərar qəbul olunub. Üçrəngli bayrağımız ilk dəfə həmin gün Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qaldırılıb.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və 1920-ci ildə qonşu iri dövlətlərin mənfur planları nəticəsində süqut etdi.

Xalq üçrəngli bayrağından məhrum olunsa da, ona olan sevgisini ürəyində yaşatdı. 71 il xalqın qəlbində istiqlal sevgisi və istiqlalın rəmzi üçrəngli bayrağa məhəbbət sənginədi. Əksinə, millətimiz bu bayrağın nə vaxtsa yenə də Vətənimizin, doğma Azərbaycanımızın üzərində məğrurluqla dalğalanacağı günü səbirsizliklə gözlədi. Həm də yalnız gözləməklə kifayətlənmədi. Onun uğrunda təmkinlə mübarizə apardı. Əzm və şücaət göstərdi, nəhayət, o gün gəlib çatdı. Həmin bayraq bir də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edildi...

Ümummilli Liderin bizə ərməğan qoyduğu müasir müstəqil Azərbaycanda onun siyasi xəttini uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin milli ideallara bağlılığı, həm də üçrəngli bayrağımıza münasibətdə açıq-aydın görünür... Ali Baş Komandanın 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən hər il noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur...".

Dövlət Bayrağı Günü haqqında geniş məlumat verən muzey rəisi çıxışını Ali Baş Komandanın "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bayrağımız bizim qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir", sözləri ilə bitirdi.

Bayrağımızın tarixindən bəhs edən "Müstəqilliyimizin üç rəngi" adlı sənədli film tədbir iştirakçıları tərəfindən diqqətlə izlənildi.

Suraxanı rayon N.Əliyev adına 282 saylı tam orta məktəbin müəllimi Gülər Musayeva muzeyə üzərində altı ay ərzində 32 şagird tərəfindən ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş 12062 şəhidin adı yazılan üçrəngli bayrağımızı təqdim etdi. Bildirdi ki, bayraq bizim müstəqilliyimizi dərk etməyimiz, onun qədr-qiymətini bilməyimiz baxımından tapındığımız, kölgəsinə sığındığımız müqəddəs bir varlıqdır. "Bayrağımız hər bir Azərbaycan vətəndaşına yüksək vətənpərvərlik duyğuları aşılayır. Onu başı üzərində uca tutmaq, vüqarla dalğalandırmaq hər bir vətəndaşın şərəf borcudur. Bayrağımızın doğma Qarabağda, Xocalıda, Şuşada, Laçında, Xankəndidə, Kəlbəcərdə... dalğalanacağı günü səbirsizliklə gözləyirik".

Sonda Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla teatrının nəzdində "Oyuq" teatr studiyasının solisti Aysu Cəbrayılovanın ifa etdiyi hərbi vətənpərvərlik mahnıları tədbir iştirakçılarında ruh yüksəkliyi yaratdı.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Sözün də su kimi lətafəti var"

*Dahi Nizami Gəncəvi sözü, bu anlamda şeiri - poeziyanı belə dəyərləndirirdi. 1000 ildi şeir duyğuları bu kəlamın işığında coşdurur, düşüncələrin gerçək nizamını müəyyənləşdirir. Yüz-yüz illərdi Azərbaycan poeziyası, poeziyadan rişələnən Azərbaycan nəsri su kimi lətafəti olan sözü ucalıq mərtəbəsində saxlamaqdadı. Çağdaş poeziyamız, nəsrimiz, publisistikamız da sözün qüdrətinin cəfakeşidi...*



Hərbi Dəniz Qüvvələrində 9 Noyabr Dövlət Bayraq Gününə həsr edilən tədbiri bu düşüncələrin zəmanəti ilə izlədim - filologiya üzrə fəlsəfə doktoru, ədəbiyyatşünas, şair Gülhanə Pənah, pedaqogika üzrə fəlsəfə doktoru, yazıçı-publisist Zenfira Məhərrəmli, "Xatirə kitabı"nın baş redaktoru Nəzakət Məmmədova, şair Zəminə Xınalı Bayraq Gününü hərbi dənizçilərlə birlikdə qeyd edirdi. Qonaqların yaradıcılığıyla yaxşı tanışam, əsərlərini oxumuşam. Duyğulanmışam da, kövrəlmişəm də.

Sözə dəyər verənlərlə görüşdü bu...

Sözün şəhd-şəkərini duyğulara sərənlərlə görüşdü bu...

Sözdə ruhun işığını görənlərlə görüşdü bu...

Tədbiri birinci dərəcəli kapitan Natiq Bağırov açaraq dedi ki, əlamətdar günlərin təntənəli şəkildə qeyd olunması ənənəsi dövlətçiliyimizə sədaqətlə bağlıdı. Həm dövlətçiliyimizə, həm də sözə sədaqətli olan qadın yazarlarımızla bu görüşün hərbçi dənizçilərin vətənsevərliyini daha da yüksəldəcəyinə inanıram. Ona da inanıram ki, bu görüş qonaqlarımızın yaradıcılığını Hərbi Dəniz Qüvvələrinə də yönəldəcəkdir. Bayrağa sevgi dövlətə sevgi deməkdi. Bu tədbir bayrağa, dövlətçiliyimizə sevgi tədbiridi...

Tədbirin mahiyyəti sevgidi - Bayrağa sevgidi.

Tədbir qonaqların hərbçi dənizçilərin timsalında orduya sevgisidi...

Tədbir hərbi dənizçilərin timsalında xalqa sevgisidi...

Bu isteyin - şair isteyinin başlanğıcı hesab edirəm bu tədbiri; qonaqların səmimi fikirləri də, xatırlatma kimi dedikləri də, müharibə haqqında danışdıqları da mənə, (hamıya!) dönməz bir həqiqəti dönməzliklə yaşatdı: xalq ordunun, ordu xalqın dayağıdı, ordu xalqa güvənir, xalq ordusuna inanır (bu tədbirdə qonaqların xalqı təmsil etdiyinə zərrəcə şübhə ola bilməz!)...

Qonaqların hər kəlməsi ana sözü, şair sözü kimi dinlənildi. - Nüşabənin, Sara Xatunun, Məhsəti Gəncəvinin, Xurşudbanu Natavanın, Nigar Rəfibəylinin, Mirvarid Dilbazinin,... sözünün işığı vardı bu kəlmələrdə. Hamı bir daha əmin oldu ki, milli-xəlqi ruh yaşadılır, yaşayır, yaşadılacaq!

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş paradda dediyi bir kəlam da qürurla xatırladıldı: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək!"

Tədbir, həm də bu inamın tədbiri kimi izlənildi...

Qonaqlar belə bir görüşə görə Hərbi Hava Qüvvələrinin komandanlığına minnətdarlığını bildirdi...

Xoş kəlam xoş ovqat deməkdi. Tədbir boyu xoş ovqat yaşanıldı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Bayraq

Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut edir və Sovet hakimiyyəti qurulur. Bununla da Azərbaycan sovetlərdən asılı hala düşür.

İkinci dəfə isə bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edilib. 1991-ci il fevralın 5-də isə bu bayrağın Azərbaycan Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar çıxarılıb.

Mavi rəng qədim soydaşlarımız olan Göytürklərin simvolu olub. Bu rəng həm də türklüyümüzü ifadə edir. İlk dəfə "türk" adı isə Göytürklərin adında işlənib. Müasirlik və demokratiyanı qırmızı rəng təmsil edir.

Yaşıl rəng islamı bildirir. Bununla bağlıdır ki, Quranda cənnət yaşıl məkan olaraq bildirilib.

Aypara bir zamanlar Bizanslıların simvolu olub. 1453-cü ildə türklər Konstantinopolu fəth edərkən ayparanı islamın simvolu olaraq götürüblər.

Bayrağımız indi işğaldan azad olunmuş Cocuq Mərcanlıda, Lələtəpədə dalğalanır. Bu bayraq bir dəfə yüksəldi və bir də enməyəcək. Xalqımızın Mübarizləri, Çingizləri olduğu müddətdə o hər zaman zirvələrdə dalğalanacaq!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

# Hərbi hissədə Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirildi



*Noyabrın 6-da Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində 9 Noyabr Dövlət Bayrağı Gününə həsr edilmiş tədbir keçirildi.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev bildirdi ki, Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun Milli Bayrağıdır. "Hər bir xalqın ən müqəddəs rəmzlərindən olan bayraq onun varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Odur ki, özünütəsdiq simvolu olan bayrağı bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının göründüyü ən şəffaf və dəqiq meyardır. Dövlət bayrağımız Azərbaycan Respublikasının ərazisində qürurla dalğalanır, bütün dünyaya müstəqil dövlətin varlığını bəyan edir".

Zabit dövlətimizin dünya arenasında danılmaz mövqeyindən, siyasi uğurlarından və bayrağımızın dünyanın aparıcı dövlətlərinin bayraqları sırasında dalğalanmasından qürur duyduğunu da vurğuladı. O, həmçinin bayram münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik etdi, xidmətlərində uğurlar arzuladı.

Hərbi hissənin zabiti Rahib Vəzirov bayrağımızın Azərbaycan dövlətinin suverenliyinin rəmzi olduğunu bildirdi. "Milli Bayrağımız dövlətimizin bütövlüyünün, müstəqilliyinin, yenilməzliyinin, ucalığının rəmzidir. Bizlər bir amalla xidmət edirik, tezliklə Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edib, bayrağımızı Qarabağa, Şuşaya, Laçına, Kəlbəcərə... sancaq. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ordumuzun qüdrəti bütün dünyaya bəllidir. Hər bir zabitimiz, gizirimiz, əsgərimiz Azərbaycan Ordusunda xidmət etməkdən qürur duyur. Bizlər Vətənin qoruyucularıyıq, bayrağımız daim ucalarda dalğalansın deyə, canımızdan keçməyə hazırıq. Bu Vətən, bu bayraq bizlərə əcdadlarımızın əmanətidir. Tez bir zamanda ərazi bütövlüyümüzü bərpa edərək bayrağımızı zəfər bayramında dalğalandıracağıq. Belə tədbirlərin keçirilməsi ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən əsas amillərdir".



Tədbir H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin rəngarəng çıxışları ilə sona çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Bakıda Azərbaycan və Gürcüstan Müdafiə nazirliklərinin təhsil üzrə ekspertləri arasında işçi görüşü keçirilib

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Gürcüstanın Müdafiə Nazirliyi arasında imzalanan 2018-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, noyabrın 6-da Bakıda hər iki ölkənin müvafiq qurumlarının təhsil üzrə ekspertləri arasında işçi görüşü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iki gün davam edən görüşdə NATO-nun STANAG testlərinin tərtibatına və qarşılıqlı sınaqdan keçirilməsinə dair fikir mübadiləsi aparılıb. Tədbir noyabrın 7-də başa çatıb.



# Şəhid hərbi qulluqçuların vərəsələrinə verilən birdəfəlik ödənişlərlə bağlı mətbuat konfransı keçirilib

Son vaxtlar bir qrup şikayətçi Prezident Administrasiyası və digər aidiyyəti orqanların qarşısında etiraz edərək şəhid hərbi qulluqçuların vərəsələrinə verilən birdəfəlik ödənişi vaxtılə almadıqlarını və onlara təqdim edilən sübutların saxta olduğunu bildirirlər.

Bununla əlaqədar noyabrın 7-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev birdəfəlik ödənişlərin verilməyə başlanıldığı oktyabrın 9 tarixindən sonra 300-dən artıq müraciətin daxil olduğunu və noyabrın 2-də 114 hərbi qulluqçunun 146 vərəsəsinə ödənişlərin verilməsi barədə qərarın çıxdığını bildirib.

# MOİK təmsilçiləri Avropa Çempionatının qalibi olublar

*Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələri kimi, idman sahəsi də Azərbaycan dövlətçiliyinin təşəkkülündə və inkişafında misilsiz rol oynamış ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın tarixinə, onun milli xüsusiyyətlərinə dərindən bələd olan Ulu Öndər xalqımızın idmana olan marağını yüksək dəyərləndirərək "Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər, Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir" demişdir.*



Dahi şəxsiyyətin yürütdüyü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda idmana göstərilən qayğının nəticəsi olaraq bu gün respublikamızda idmana böyük maraq və diqqət var. Bir çox idman növləri üzrə keçirilən beynəlxalq turnirlərdə idmançılarımızın istər fərdi, istərsə də komanda şəklində nailiyyətlərinin şahidi oluruq. Üçrəngli bayrağımız beynəlxalq idman arenalarında dalğalanır, xarici ölkələrdən eşidilən Dövlət himnimizin sədaları idmançılarımızın qələbəsinin xəbərçisi olur. Son illər böyük nüfuzlu beynəlxalq idman oyunlarının ölkəmizdə keçirilməsi də dövlətimizin idmana böyük diqqət və qayğısının bariz nümunəsidir.

Hər sahədə olduğu kimi, Vətənimizin müdafiəsində duran hərbi qulluqçularımız da idmana böyük həvəs və maraq göstərir. Döyüş hazırlığı ilə yanaşı, hərbi qulluqçularımızın fiziki cəhətdən möhkəm, güclü və sağlıqlı olmaları onların döyüş qabiliyyətlərini daha da artırır. Azərbaycanın ordu sıralarında xidmət edən yüzlərlə hərbçi-idmançı hərbi xidməti ilə yanaşı, idman fəaliyyətini də yüksək səviyyədə davam etdirir. Hərbçi-idmançılar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin idmançılara, ordu idmanının inkişafına göstərdiyi böyük dəstək nəticəsində müxtəlif idman növləri üzrə peşəkar idmançıların yetişdirilməsi üçün hər cür şərait lə təmin olunmuş Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) fəaliyyət göstərir. Klubun yetirmələri beynəlxalq idman arenalarında yeniyeni uğurlar əldə edirlər. MOİK Azərbaycan Silahlı Qüvvələrini beynəlxalq və respublika səviyyəli yarışlarda peşəkar səviyyədə təmsil edir, həmçinin gənclərin vətənpərvərlik hissinin və fiziki hazırlığının yüksəldilməsində müxtəlif idman növləri üzrə fəal iştirak edir.

Mərkəzi Ordu İdman Klubu 1961-ci ildə təsis edilib. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Mərkəzi Ordu İdman Klubu Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibinə verilib. Yarandığı gündən bu günədək Mərkəzi Ordu İdman Klubu şərəfli yol keçib. Klubun yetirmələri Olimpiya Oyunlarında, həmçinin dünya və Avropa çempionatlarında iştirak edərək medallar qazanıblar. Qazanılmış medalların sayına görə MOİK-in adı Gənclər və İdman Nazirliyi tərəfindən həmişə fərqlənən idman klubları sırasında çəkilib.

Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunda 20 idman növü üzrə fəaliyyət göstərən bölmələrdə bütün yaş qrupları üzrə məşqlər keçirilir. Azərbaycan milli yığma komandasının əksər üzvləri Mərkəzi Ordu İdman Klubunun təmsilçiləridir. Olimpiya, dünya, Avropa və başqa beynəlxalq idman yarışlarında qazanılan medalların bir hissəsi MOİK-in idmançılarına məxsusdur. Həmçinin ölkədə və beynəlxalq səviyyəli yarışlarda uğurlu çıxış edən MOİK-in yetirmələri BAKI-2017 İslam Həmrəyliyi Oyunlarında 1-ci yeri tutan Azərbaycan yığmasının qələbəsində də pay sahibi oldular. Onlar 2 qızıl, 1 gümüş və 1 bürünc olmaqla komandamızın hesabına 4 medal qazandırdılar.

Onu da qeyd edim ki, MOİK 137 üzv ölkəni özündə birləşdirən, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınan Beynəlxalq Hərbi İdman Şurasının (SİZM) fəal üzvüdür.

SİZM-ə üzv olduğu gündən bu günə kimi, MOİK-in yetirmələri 6 dəfə Ümumdünya Hərbi İdman Oyunlarında və Dünya çempionatlarında uğurla çıxış edərək çoxlu sayda qızıl, gümüş və bürünc medallar qazanıblar. Ordu idmançılarının uğurları sırasında 6-cı Ümumdünya Hərbi İdman Oyunlarında 120 ölkə arasında 15-ci yerə layiq görülmələrini misal göstərmək olar. Mərkəzi Ordu İdman Klubunun uğurları bununla kifayətlənmir, 2013-cü ildə hərbçi-idmançılar arasında ilk dəfə keçirilən futbol üzrə Dünya Kubokunun Azərbaycanda keçirilməsi də ordu idmançılarımızın nailiyyətlərindəndir. Bunların hamısı, ölkəmizdə idmana göstərilən qayğının, respublikamızda yaradılan idman komplekslərinin müasir tələblərə cavab verməsinin bir daha sübutudur.



Dünya miqyaslı bir çox turnirlərdə Azərbaycan Ordusunu layiqincə təmsil edərək, Vətənə çoxlu medallar gətirmiş Mərkəzi Ordu İdman Klubunun yetirmələri növbəti dəfə 26-27 oktyabr tarixlərində Ukraynanın Kiyev şəhərində keçirilən idmanın Kyokuşin Karate üzrə Avropa Çempionatında iştirak ediblər. 18 ölkənin iştirak etdiyi çempionatda məşqçilər Akif İsgəndərov, İnşallah Camalov, Abbas Abbasov, Hamlet Əlilinin rəhbərliyi ilə tatami üzərinə çıxan pəhləvanlarımız medal sayına görə iştirakçı komandalar arasında 1-ci yeri qazanıblar. İdmançılarımız 5 qızıl, 7 gümüş və 6 bürünc medalla ölkəyə qayıdıblar.

Həmçinin bu yarışlarda dünya çempionu, Dünya Kyokuşin təşkilatının direktoru Əziz Əşrəfov karate üzə dünya rekordunu da yeniləyib. Yarış haqqında jurnalistlərin suallarını cavablandıran idmançımız bildirib ki, bu çempionat Azərbaycan komandasına çox böyük nailiyyətlər verdi: "Komandamız bu çempionatda bir daha öz sözünü dedi. Bütün ölkələr arasında komandamız medal sayına görə birinci yerə layiq görüldü. Yaxşı döyüşlər, güclü texnika və ustalıq göstərdilər. 10 beysbol bitanı ayağımla sındıraraq dünya rekordunu təzələdim".

Qeyd edim ki, çempionatda komandamızın digər üzvləri Ramil Mirzəyev, Fariz Rəhimov, Yavər İmanov, Aysel Abdullayeva, Emil Şamilov bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıblar.

İdmançılarımızın beynəlxalq miqyaslı yarışlarda əldə etdiyi nailiyyətlər ölkəmizin qüdrətini bir daha sübut edir, gənclərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığını göstərir.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# “Bayrağımız tezliklə Qarabağda dalğalanacaq!”

*Sumqayıt Hərbi prokuroru ədliyyə polkovniki Zöhrab Kazımov və Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov "N" hərbi hissəsində oldular.*



Qonaqlara hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu haqqında ətraflı məlumat verilib. Sonra əsgərlərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, hərbi nizam-intizamın və hərbi borcun dərindən dərk edilməsinin aşılanması məqsədilə hərbi hissənin şəxsi heyəti ilə görüş keçirilib.

Tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Görüşdə ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək ordumuzun dünənindən, keçdiyi şərəfli yoldan danışıb, günü-gündən qüdrətlənən Azərbaycan Ordusunun tezliklə bayrağını Qarabağda dalğalandıracağına inam ifadə edib. "Azərbaycan Ordusu ən müasir silahlarla, hərbi texnika və digər müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin və düşünülmüş strateji xəttin nəticəsidir ki, bu gün Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək qabiliyyətindədir. Hərbi arsenalın bir hissəsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə iyunun 26-da keçirilən hərbi paradda fəxrlə nümayiş etdirildi. Bu gün Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ümumilikdə 1200 adda hərbi təyinatlı məhsul istehsal edir. Ölkəmizin hərbi əməkdaşlıq çərçivəsində əldə etdiyi müasir silah və texniki vasitələr ordumuzun imkanları barədə aydın təsəvvür yaradır. Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə hərbi təyinatlı məhsulların satışı üzrə müqavilələri ilbəil artır.

Azərbaycan veteranları hər zaman ordumuzun yanındadır. Ordumuzun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsində Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri yaxından iştirak edirlər".

Sumqayıt Hərbi prokuroru Zöhrab Kazımov çıxışında əsgərləri məsuliyyətli olmağa, əsgəri borclarının öhdəsindən layiqincə gəlməyə səsləyib. Bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olmasının, hərbi kollektivlərdə nizam-intizamın yüksək dəyərləndirilməsinin hər bir azərbaycanlı üçün qürurverici olduğunu bildirib.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi yubiley medalları təqdim edilib.

Tədbirin sonunda hərbi hissənin şəxsi heyəti ilə birgə xatirə şəkli çəkdirilib.

**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# “Qələbələrimizin davamı gələcək”

*Sərhəddəyik... Səngərdən qalalı dağları, laçın qayaları, müharibə alovunu, igid oğulları, qəhrəmanlar diyarını, oğullarımızın cövlan etdiyi yerləri özündə ehtiva edən bir məkandayıq. Bu torpağa tuşlanan hər bir mərmiyə, gülləyə sinə gərməyi bacaran, torpağı uğrunda canından keçməyə hazır olan igid Azərbaycan əsgərlərini, hərbi qulluqçularını gördükdə insan qürur hissi keçirir. Əmin olursan ki, bu gün Azərbaycan əsgəri, hərbçisi vətənpərvərlik, qəhrəmanlıq hissi ilə yaşayır, bu torpağa, bu elə sevgi ilə xidmət edir.*





"N" hərbi hissəsində Qazax rayonunun Xanlıqlar kəndindən olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Amil Vəliyevlə söhbətim də Vətən uğrunda canını qurban verməyə heyifsilənməyən oğullarımızın hər zaman olacağını deməyə əsas verir. İnanırsan ki, Vətənə şərəflə xidmət edən həmkarının timsalında Azərbaycan əsgəri Vətənin azadlığı və bütövlüyü, millətin birliyi və səadəti uğrunda hər şeyə hazırdır.

Amil Vəliyevin xidmətə məsuliyyətini onun fəaliyyətindən də hiss etmək mümkündür. Onun əsas amalı torpaqlarımızın azad olunması əməliyyatında yaxından iştirak etməkdi. Bunun üçün də hərbi təcrübəsinin artmasına xüsusi önəm verir: "Ordunun döyüş qabiliyyəti əsgərin döyüş hazırlığından asılıdır. İşğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik olan ordunun olması əsas şərtdir. Bunun üçün hərbi təcrübəmin artmasına xüsusi əhəmiyyət verirəm. Bu gün şəxsi heyətimiz elə bir səviyyədə döyüş hazırlığına malikdir ki, artıq düşmən qorxu içindədir. Ancaq yaddan çıxartmayaq ki, əsgərlərimiz üçün vətənpərvərlik əsas silah kimi qarşıya qoyulmalıdır.”

- Əgər biz əlimizə silah almışıqsa və bu silahdan Vətənin qorunması üçün istifadə ediriksə, bu bizim şərəf yolumuzdur, - deyə çavuş Amil Vəliyev söhbətinə davam etdi. - Mübariz İbrahimov, Fərid Əhmədov, Cavanşir Rəhimov, Çingiz Qurbanov və digər şəhidlərimizin keçdiyi şərəfli həyat yolu bugünkü hərbçilərə, xüsusən də əsgərlərə Vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımızın iradəsini ifadə edərək dəfələrlə deyib ki, Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək. Azərbaycan əsgərləri bu fikirləri rəhbər tutaraq döyüşkən əhval-ruhiyyəyə kökləniblər.

2016-cı ilin aprel hadisələrini xatırlayan Amil Vəliyev qeyd etdi ki, Azərbaycan Ordusu təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində şanlı qələbə qazandı. "Azərbaycan Ordusu düşmənə cavab olaraq sarsıdıcı zərbələr endirdi, Lələtəpə və Talış yüksəkliklərini ermeni işğalından azad etdi, on minlərlə hektar əraziyə nəzarət etmək imkanı qazandı. Bütün bunlar qorxu bilməyən, torpaqlarımızın işğaldan azad olunması üçün alışıb-yanan, təşnə olan əsgərlərimizin hesabına mümkün oldu. Özümü ona görə qürurlu hesab edirəm ki, mən də regionun ən güclü ordusunun hərbi qulluqçusuyam. Qürurlanmağa haqqım çatır, ona görə ki, atam da bu torpağın azadlığı uğrunda döyüşənlərin sırasında olub. Mən də bu yolu davam etdirirəm. İnanıram ki, övladım da bu şərəfli peşənin yolçusu olacaq. Arzum tarixi torpaqlarımıza qədəm qoymaq, xalqımla birgə o sevinci yaşamaq, övladımın əsgər kimi müstəqil, suveren Azərbaycanın sərhədlərində xidmət etməsini görməkdir. İnanıq ki, qələbələrin davamı gələcək və övladlarımıza Zəngəzurlu, Göyçəli, Qarabağlı Azərbaycan miras qalacaq. Bu arzumu silahdaşlarımla birgə reallaşdıracağıq!”

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## İran ordusu yeni radar sistemlərini sınaqdan keçirib



İran İslam İnqilabı Keşikçiləri Korpusunun Aviasiya və Kosmonavtika Qüvvələrinin şərti adı "Vilayət 97" olan hərbi təlimləri çərçivəsində ilk dəfə olaraq "Bəşir" qırıcı təyyarələrə nəzarət və 3D lokator-radar sistemi sınaqdan keçirilib.

Təlimlər zamanı, həmçinin "Fəcr" kəşfiyyat lokatoru, "Rəəd" elektron kəşfiyyat lokatoru və "Kruz" raketlərin izlənməsi sistemləri də sınaqdan keçirilib. İranın milli istehsalı olan bu hərbi sursatlar düşmənin gizli hədəflərinin aşkar edilməsi, izlənilməsi və zərərsizləşdirilməsi imkanlarına malikdir.

## Rusiya ilk üzən nüvə stansiyasını istifadəyə verib



Rusiya özünün ilk üzən nüvə stansiyasını istifadəyə verib.

Rusiyanın "Rosatom" Dövlət Korporasiyası ilk üzən nüvə stansiyasını istifadəyə verib. "Akademik Lomonosov" adlı nüvə stansiyasının sağ reaktoru tam gücünə çatıb.

Sankt-Peterburqdakı Baltik zavodunda istehsal olunan nüvə stansiyası liman şəhərləri, böyük sənaye müəssisələri, dənizdəki neft və qaz hasil edən obyektlərin elektrik enerjinə olan tələbatını təmin etmək üçün nəzərdə tutulub. İki reaktordan ibarət stansiya 70 meqavat elektrik enerjisi istehsal edə bilir.

## Aleksandr Lukaşenko Belarus ərazisində Rusiyanın hərbi bazasının yerləşdirilməsi məsələsinə aydınlıq gətirib



Belarus ərazisində xarici ölkələrin, o cümlədən Rusiyanın hərbi bazasının yaradılmasına ehtiyac yoxdur. Bu fikri Belarus Prezidenti Aleksandr Lukaşenko ABŞ-ın analitik qrupunun nümayəndələri ilə görüşündə söyləyib.

A.Lukaşenko bildirib ki, indiyə qədər Belarus ərazisində xarici ölkələrin hərbi bazası olmayıb. İntensiv olaraq Rusiyanın hərbi bazasının Belarus ərazisində yerləşdirilməsi barədə müzakirələr aparılar. Bunlar hamısı uydurma, süni müzakirələrdir.

Belarus Prezidenti vurğulayıb ki, Rusiya ilə hərbi-siyasi ittifaq mövcuddur, ancaq müstəqil dövlət olaraq ərazimizdə digər ölkənin hərbi bazasının yaradılmasına imkan vermərik. Belarusun özünün çox güclü, nizamlı ordusu var, ölkəyə qarşı hər hansı münaqişə baş verərsə, tutarlı cavab verməyə qadirdir. Əgər NATO Belarusa yaxın ərazilərdə, Polşada hərbi bazasını yerləşdirərsə, biz daha müasir silahlarla, raket sistemi ilə güclənməkdə davam edəcəyik.

## ABŞ 3 PKK terrorçusunun tapılması üçün 12 milyon dollar mükafat ayırıb



ABŞ tərəfi PKK terror təşkilatının rəhbər şəxslərindən sayılan Murat Karayılan, Cemil Bayık və Duran Kalkanın axtarışı üçün pul mükafatı ayırıb.

3 təhlükəli terrorçunun tapılması üçün ümumilikdə 12 milyon ABŞ dolları məbləğində vəsait müəyyən olunub. Mükafat bu terrorçuların yeri barədə dəqiq məlumat verənlərə çatacaq.

Bildirilir ki, Murat Karayılanın yerini bildirilənə 5 milyon, Cemil Bayıka görə 4 milyon və Duran Kalkana isə 3 milyon pul ayrılıb. Əməliyyat axtarış işlərini səmərəli davam etdirmək məqsədilə terrorçulara dair məlumatların ötürülməsi üçün koordinatlar elan olunub. Daxil olacaq məlumat mənbələrinin məxfiliyinin qorunmasına zəmanət verilir. Diqqətə çatdırılır ki, 1997-ci ildə PKK-nı xarici terror təşkilatı elan edən ABŞ 2001-ci ildə onu beynəlxalq terror təşkilatı kimi tanıyıb.

**AZƏRTAC-ın materialları əsasında**

Fiziki hazırlıq

# Döyüş hazırlığının tərkib hissəsi



*Gələcəyimiz olan gənc nəslin sağlamlığı, fəal həyat tərzi keçirməsi bütün arzuların fövqündə dayanır. Gənclərimizin Vətənin müdafiəsinə hazır olan mərd və cəsur əsgərlər kimi yetişməsində idmanın, bədən tərbiyəsinin rolu əvəzsizdir. Ona görə də, hər sahədə olduğu kimi, ordumuzda da idmana böyük həvəs və maraq olduğunun şahidi oluruq. Bütün hərbi hissələrdə fiziki hazırlığa üstünlük verilir, müxtəlif idman yarışları təşkil olunur. Hərbi qulluqçularımız öz xidməti vəzifələrini yerinə yetirməklə yanaşı, bir və ya bir neçə idman növü ilə də məşğul olurlar.*

Tank bölmələrindən birində şəxsi heyətin məişət şəraiti, gündəlik fəaliyyəti, keçdiyi məşğələlərlə tanış olduq. Azərbaycan Ordusunun bütün bölmələrində olduğu kimi, bu bölmədə də günün nizam qaydasına ciddi riayət olunur, təyin olunmuş dərslər yüksək səviyyədə keçirilir. Hərbi hissənin zabiti Rasim Məmmədov dedi ki, əsgərlərin gündəlik fəaliyyəti nizam qaydasına uyğun olaraq həyata keçirilir və buna ciddi nəzarət edilir. Zabitlə birgə idman şəhərciyinə yollanırıq.

O, keçirilən məşğələlər arasında fiziki hazırlıq dərsinin önəmindən danışır: "Fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsi olaraq döyüş qabiliyyətinə təsir edir, əsgərin dözümlülüyünü, gücünü, çevikliyini artırır. Hər kəsə məlumdur ki, döyüşdə elə məqamlar olur ki, düşmənlə üz-üzə gəlirsən. Həmin an fiziki cəhətdən güclü olmalısan ki, düşməni bir göz qırpımında məhv edə biləsən. Fiziki hazırlıqlı əsgər daha gümrah, sağlam ruhlu olur, verilən tapşırıqları cəld yerinə yetirir. Gördüyünüz kimi, hərbi hissəmizdə idmanla məşğul olmaq üçün hər cür şəraitimiz var. İdman şəhərciyimizdə müxtəlif idman hərəkətləri etmək üçün alətlər, qaçış meydanı və digər qurğular yerləşir. Bununla yanaşı, əsgərlərimizin idmana olan marağını artırmaq üçün mütəmadi olaraq kütləvi idman tədbirləri təşkil edir, onlarla birgə futbol, voleyboy və s. oyunlar oynayırıq".

Hərbi hissənin müasir idman şəhərciyi diqqətimi çəkmişdi. Geniş ərazisi, müxtəlif idman alətləri, səliqəli futbol və voleybol meydançaları idmana marağı olmayanı belə həvəsə gətirir. Həmçinin burada idman normativləri qeyd olunan lövhə yerləşdirilib. Digər bir stenddə isə müxtəlif idman hərəkətlərinin düzgün icra olunma qaydaları öz əksini tapıb. İdman edən əsgərlərin çevik hərəkətlərini izlədikcə zövq alırsan. Hər biri idmançı görkəminə malik, cəld və dözümlü əsgərlərdir. Onlar idman hərəkətlərini həvəslə və bacarıqla yerinə yetirir, turnikdə, paralel qollarda və digər idman qurğularında məşqlərini davam etdirirlər.



Əsgərlərlə qısa söhbət edirəm. Məlum olur ki, günün nizam qaydasına uyğun olaraq, komandirlərinin rəhbərliyi ilə fiziki hazırlıq məşğələsini yerinə yetirirlər.

İlk olaraq hərbi xidmətə Zəngilan rayonundan çağırılan əsgər Mehdi Həsənov düşüncələrini bölüşür: "Hər birimizin ən birinci məqsədi işğal altında olan torpaqlarımızı azad etməkdir. Onun üçün də nümunəvi xidmət edir, verilən tapşırıqları vaxtında yerinə yetiririk. Hərbi bilikləri öyrənməklə yanaşı, fiziki hazırlığımıza da diqqət edirik. Vəzifələrimizin öhdəsindən layiqincə gəlmək üçün sağlamlıq, dözümlülük, fiziki güc əsas şərtdir. Ona görə də fiziki hazırlıq saatlarında fəal iştirak edir, daim gümrah, sağlam və güclü olmaq üçün idmanla məşğul oluruq. Mənim ən böyük arzum Zəngilana getməkdir. Doğma yurd-yuvamız haqqında ancaq mətbuatdan oxumuşam, valideynlərimdən eşitmişəm. Əsgəri xidmətim məni ruhlandırdı. Ümidimi daha da artırdı. Artıq əminəm ki, tezliklə o yerlərə ayaq basacağıq".

Əsgərlər Nəzər Zeynalov, Nicat Xəlilov və başqaları da fiziki hazırlığın yüksək olmasının hərbi xidmət üçün çox vacib olduğunu bir daha vurğulayırlar. Qürur və qətiyyətlə qeyd edirlər ki, döyüş əmrinə hər an hazırdırlar: "Biz regionun ən güclü ordusunun sıralarında xidmət edirik. Vətəni sevib ona sadiq olmaq, gecə-gündüz keşiyində dayanmaq hər birimizin namus borcudur. Bu borcun öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik. Ana Vətənə əsgər olmaqdan qürurlanırıq. Torpaqlarımızın bir qismi işğal altındadır və bizim əsas amalımız Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı düşmən tapdağından azad etməkdir. Ona görə də həm döyüş qabiliyyətimizi, həm də fiziki hazırlığımızı daim artırırıq. Hər gün idman hərəkətləri edirik ki, döyüş meydanında düşmənə göz açdırmayaq. Onları məhv edib, torpaqlarımızı işğaldan azad edək".

Əsgərlərin qətiyyətli sözləri, qorxmazlıqları Qarabağda qələbə reportajları hazırlayacağımız günlərin yaxında olacağına inamımızı daha da artırır...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

Hərbi texnikalar, silahlar

# "Alliqator" komanda-hücum helikopteri



İlk Sovet komanda-hücum Ka-52 "Alliqator" helikopterinin təqdimatı 1996-cı ilin oktyabr ayında Banqalor şəhərində "Aero-Hindistan" aviasalonunda həyata keçirilib. Helikopter Ka-50 "Qara akula" hücum helikopterinin modernləşdirilmiş variantıdır. Ona xüsusi optik-elektron və radiolokasiya kompleksi quraşdırılıb. Bu da Ka-52-nin döyüş imkanlarını daha da artırıb, ona istənilən iqlim şəraitində və müxtəlif vaxtlarda döyüş tapşırıqlarını yerinə yetirməyə imkan verir. Helikopterdə operator-şturman üçün də yer ayrılıb və heyətin iki üzvü birlikdə yerləşdirilib.

2008-ci ildə "Alliqator"un seriyalarla istehsalı həyata keçirilib. Ordu aviasiyasının silahlanmasına 2011-ci ildə daxil edilib. Hazırda Rusiya Hərbi Hava Qüvvələrinin silahlanmasında mövcuddur. Ka-52 helikopterinin Ka-50-dən əsas fərqi güclü avionikaya malik olmasıdır. Helikopter müasir naviqasiya, kəşfiyyat vasitələri, hədəf göstərici və düşmənin tuşlama vasitələrinə qarşı sistemlə, RN01 "Arbalet" ilə təchiz edilib. Radiolokasiya sistemi 20-yə qədər hədəfi nəzarətdə saxlaya bilir. 12 kilometrlik məsafədən döyüş maşınını, 15 kilometrlik məsafədən hücum təyyarəsini, 5 kilometrlik məsafədən isə "Stinqer" raketini aşkar edə bilər. Helikopterin optik-elektron sistemi burun hissəsində yerləşdirilib. Sistem TV kamera, teplovizor, lazerli hədəf göstərici və məsafəölçənlə, lazerli şüalanma göstəricisi və TƏİR tuşlama sistemi ilə təchiz edilib. Bundan başqa pilotlar gecəgörmə eynəyi ilə də təmin ediliblər. Bu da onlara uzaq məsafədən gecə və gündüz hədəfləri aşkar etməyə kömək edir. Pilotların sərəncamında beş ədəd rəngli displey və bir ədəd monitor da vardır. Ka-52 "Alliqator" helikopterinin taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə onun uzunluğu 16 metr, hündürlüyü 5 metr, əsas vintinin diametri 14,5 metr, boş halda çəkisi 7800 kiloqram, maksimal uçuş çəkisi 2800 kiloqram, döyüş çəkisi 2800 kiloqram təşkil edir. Onun maksimal sürəti saatda 350 kilometr, kreyser sürəti saatda 250 kilometr, uzaqlığı isə 520 kilometrdir. "Alliqator"un silahlanması 460 mərmidən ibarət döyüş dəsti ilə birlikdə hərəkət edən 30 mm-lik topdan ibarətdir. Raket silahlanmasına "Vixr" və ya "Şturm-V" tankəleyhinə idarəolunan raket (12 ədəd) daxildir, onun atəş uzaqlığı 8000 metr, zireh deşməsi 950 mm-dir. Bundan başqa silahlanmaya 80 ədəd 80 mm-lik və ya 20 ədəd 122 mm-lik idarə olunmayan raketlər, 4 ədəd "İqla-V" idarəolunan raketlər, top və pulemyotla birlikdə konteyner də daxildir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın və Ermənistanın Müdafiə nazirlikləri arasında hər hansı rabitə və ya digər əlaqə mövcud deyil

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Ermənistanın Müdafiə Nazirliyi arasında rabitə və ya hər hansı digər əlaqə mövcud deyil.*

Bunu Ermənistanın Müdafiə naziri vəzifəsini icra edən David Tonayanın açıqlaması ilə əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən bildiriblər.

Açıqlamada bildirilib ki, Düşənbədə əldə olunmuş razılığa əsasən, cəbhədəki vəziyyətlə bağlı Ermənistanla qarşılıqlı əlaqəni yaradan şəxs müəyyən edilib və həmin məsul şəxs Müdafiə Nazirliyinin əməkdaşı deyil.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 908
Nüsxə 3525